MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

MÜNDƏRİCAT

ÖN SÖZ 6

QEYRİ-MADDİ MƏDƏNİ İRS ANLAYIŞI – MƏDƏNİYYƏTİMİZİN DÜNYADA DANIŞAN DİLİ
Şikar Qasımov 7

AZƏRBAYCANIN İRS NÜMUNƏLƏRİ YUNESKO-NUN
QEYRİ-MADDİ MƏDƏNİ İRS SİYAHISINDA
Məleykə Hüseynova 15

AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ VƏ ONUN İNKİŞAF MƏRHƏLƏLƏRİ
Şikar Qasımov 20

MUĞAMIN TARİXİ VƏ MİLLİ KİMLİKDƏ ROLU (ARXEOLOJİ MATERİALLAR ƏSASINDA)
Kübra Əliyeva 30

MUSİQİNİN FƏLSƏFİ DƏYƏRİ
Elmira Abasova 39

TAR ALƏTİNİN YARANMA TARİXİ, FORMALAŞMASI VƏ İFAÇILIQ SƏNƏTİ
Səxavət Məmmədov 50

KAMANÇA ALƏTİNİN YARANMA TARİXİ, İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ
İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ
Toğrul Əsədullayev 54

"DƏDƏ QORQUD" DASTANI İSLAMİ QAYNAQ KİMİ
Aybəniz Rəhimova 58

POSTMODERN AZƏRBAYCAN ROMANINDA "DƏDƏ QORQUD" DASTANI VƏ
TƏHRİF EDİLMİŞ TARİX
Şəmil Sadıqov 63

AŞIQ, XANƏNDƏLİK VƏ MUĞAM SƏNƏTİNİN AZƏRBAYCAN XALQ YARADICILIĞININ
TƏBLİĞİNDƏ ROLU
Şikar Qasımov 69

OZAN-AŞIQ SƏNƏTİNİN TARİXİ-MƏDƏNİ SƏCİYYƏSİ
Hafiz Kərimov 80

AZƏRBAYCANIN AŞIQ SƏNƏTİ VƏ QADIN AŞIQLARI ƏZİZƏ CƏFƏRZADƏ
YARADICILIĞINDA
Fərqanə Zülfiqarova 87

ŞİFAHİ YUMOR VƏ SÖZ MƏDƏNİYYƏTİ: LƏTİFƏLƏRİN MAARİFLƏNDİRİCİ VƏ
SATİRİK FUNKSİYASI
Lətafət Əliyeva 91

TAR ALƏTİNİN YARANMA TARİXİ, FORMALAŞMASI VƏ İFAÇILIQ SƏNƏTİ

Səxavət Məmmədov
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
https://doi.org/10.30546/19023.2026.1001.220

Tar Azərbaycan musiqi mədəniyyətində böyük üstünlüklə istifadə olunan musiqi aləti olub, onun xalq arasında geniş şöhrət tapması milli musiqimizin qədimliyi, muğamlarımızın zənginliyi ilə bağlıdır.

Professor Abbasqulu Nəcəfzadənin araşdırmalarına görə tar alətini X əsrdə Türküstan türklərindən olan Tərxanın oğlu Məhəmməd Cərco şəhərinin Fərab kəndində icad etmişdir. Tərxanın oğlu Məhəmməd dedikdə əslən Xorasan türkü olan dahi mütəfəkkir, filosof, alim və musiqişünas Əbu Nəsr Məhəmməd ibn Məhəmməd ibn Uzluq ibn Tərxan əl-Fərabi nəzərdə tutulur.

XVII əsrdə Məhəmməd Füzulinin "Həft cəm" poemasında, Qətran Təbrizi (XI əsr) və Qövsi Təbrizi (XVII əsr) kimi klassik şairlərin şeirlərində də tar alətinin adına rast gəlirik.

Tar rübab formalı alətlər qrupuna aid olduğu üçün XI əsrdə sufi dərvişlərinin mərasimlərində də istifadə olunmuşdur.1816-cı ildə Əbu Qasım Təbrizinin yağlı boya ilə çəkdiyi "Tarçalan qız" rəsm əsəri orta əsrlərdə tar alətinin qızlar tərəfindən də ifa edildiyini göstərir.

Tar sözü fars dilindən tərcümədə "sim" deməkdir. Buradan belə bir fikir yaranır ki, tar qədim zamanlarda iki simli alət olub, simlərin sayı artdıqca tarın adı da dəyişmişdir: dütar - iki simli tar, setar - üç simli tar, çahartar - dörd simli tar, pənctar - beş simli tar, şeştar - altı simli tar.

İran musiqişünası Ruhulla Xaliqinin verdiyi məlumatlara görə Şah İsmayıl Xətainin atası Şeyx Heydər çahartarı (dörd simli tar) icad etmişdir. XVII əsrin türk nəzəriyyəçisi Övliya Çələbi "Səyahətnamə" əsərində dövrünün ən tanınmış çahartar ifaçısı azərbaycanlı Muradağa Naxçıvanlının adını çəkir.

Tar aləti İranda, Türkiyədə, Orta Asiyada, Dağıstanda geniş yayılmasına baxmayaraq, Azərbaycan tarı digər xalqlarda istifadə olunan tarlardan quruluşuna görə fərqlənir. Xalqımızın mədəni həyatında mühüm rol oynayan tar aləti böyük tarixi sınaqlardan keçərək təkmilləşmiş və müasir formasına gəlib çıxmışdır.

Azərbaycan musiqisi ilə Yaxın və Orta Şərq xalqlarının musiqisinin oxşar olduğunu iddia edən bəzi musiqişünaslar Azərbaycan musiqisini ərəb-iran musiqisinin təkrarı və tör-töküntüsü kimi təqdim etməyə çalışaraq muğamları xalqımızın həyatından çıxarmağa cəhd edir, tarda mövcud olan muğam pərdələrini ləğv etmək istəyirdilər.

Tar əvvəllər altı simdən ibarət olub, diz üstündə ifa olunardı. XIX əsr ifaçılıq sənətinin görkəmli nümayəndəsi olan Mirzə Sadıq Əsəd oğlu (1846–1902) tarın konstruksiyasını elmi-akustik prinsiplər əsasında təkmilləşdirdi: tarın çanağını dərindən oyaraq çəkisini azaldıb onu dizdən sinəyə qaldırdı, tarın qolunda əlavə pərdələri çıxarmaqla 22 pərdə saxladı, alətin səsini gücləndirmək və texniki imkanlarını artırmaq məqsədilə ağ və sarı simlərə müvafiq olaraq qoşalaşmış zəng simlər əlavə edib simlərin sayını on birə çatdırdı, qol ilə çanaq arasında yaranan gərginliyi, təzyiqi tarazlamaq məqsədilə çanağın özündən çıxan qısa qol çıxıntısını tarın qoluna geydirib birləşdirdi, çanaqların içərisinə - kiçik çanaqla böyük çanaq arasında dayaq məqsədilə ağac əlavə edərək gərilmə vəziyyətinin qarşısını aldı.

XIX əsrdə Mirzə Sadıq Əsəd oğlu (Sadıqcan) tərəfindən həyata keçirilən konstruktiv islahatlar alətin tamamilə müasirləşməsinə, səs diapazonunun genişlənməsinə və ifa texnikasının zənginləşməsinə səbəb olmuş, nəticədə Azərbaycan tarı regionun digər xalqlarının tar növlərindən quruluşca fərqlənərək özünəməxsus milli kimlik qazanmışdır.

Mirzə Sadıq Əsəd oğlunun tar ifaçılığı sahəsindəki bu yenilikləri bütün Orta Asiya, Zaqafqaziya, Dağıstan ifaçıları tərəfindən qəbul olundu. Bu dövrdə Azərbaycanda bir sıra istedadlı tarzənlər fəaliyyət göstərmişlər. Onlardan Mirzə Fərəc Rzayev (1847-1927), Məşədi Zeynal Haqverdiyev (1850-1918), Məşədi Cəmil Əmirov (1875-1928), Qurban Pirimov (1880-1965) və başqalarını misal göstərmək olar.

Görkəmli tar ifaçısı Qurban Pirimov ifaçılıq sənətində bir çox yeniliklərə imza atmışdır. Belə ki, onun Cabbar Qaryağdıoğlu ilə birgə yaratdığı muğam üçlüyü düz iyirmi il fəaliyyət göstərərək muğam sənətini təbliğ etmişdir. Qurban Pirimov məşhurlaşaraq Zaqafqaziya, Orta Asiya, Ukrayna, Rusiya və İrana qastrol səfərlərinə dəvət olunurdu. Onun ifa etdiyi muğamlar Riqa, Varşava və Kiyev şəhərlərində "Potte", "Sport-Rekord", "Qrammafon" firmaları tərəfindən vallara yazılmışdır. Qurban Pirimov dramatik və musiqili səhnə əsərlərini tarda yüksək peşəkarlıqla müşayiət etmişdir. O, Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının ilk tamaşasında orkestrin solisti olmuş və tarda ifa etmişdir.

1922-1928-ci illərdə Azərbaycan Xalq Maarif Komissarı vəzifəsində çalışan, "İnqilab və Mədəniyyət" jurnalının redaktoru Mustafa Quliyevin göstərişi ilə konservatoriyada tar alətinin tədrisi qadağan edilməli idi. Lakin Üzeyir Hacıbəylinin böyük zəhməti nəticəsində tar aləti not sisteminə keçirilərək daha da inkişaf etdirildi.

Tar alətinin not sisteminə keçməsi ilə tar ifaçılığı sənəti daha da formalaşaraq inkişaf etdi. Belə ki, əvvəllər yalnız xalq musiqisini ifa edən tar aləti artıq bəstəkar əsərlərini səsləndirdi və məxsusi olaraq tar üçün əsərlər yazılmağa başladı. XX əsrdə Azərbaycanda fəaliyyət göstərən tarzənlərdən Əhməd Bakıxanov (1892-1973), Bəhram Mansurov (1911-1985), Əliağa Quliyev (1917-1998), Kamil Əhmədov (1920-1997), Hacı Məmmədov (1920-1981), Baba Salahov (1923-1982), Əhsən Dadaşov (1924-1976), Sərvər İbrahimov (1930-2002) və başqalarını misal göstərə bilərik. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi Əhməd Bakıxanov alət üzərində müxtəlif sınaqlar apararaq təcrübi tar növləri yaratmışdır. XX əsrin 60-cı illərində Varid Fərzəlibəyov orkestr və ansambllarda bəm səsləri təmin etmək üçün bəm tar növünü yaratmışdır. Bəm tar quruluşuna görə tarın böyük forması olub, mizrabı adi tar mizrabından iki dəfə böyükdür.

Dahi Üzeyir Hacıbəyli tar alətinin texniki imkanlarını nəzərə alaraq, milli koloriti gücləndirmək məqsədilə "Koroğlu" operasında bu alətdən istifadə etmiş və sonrakı illərdə bəstəkarlarımız bu ənənəni davam etdirərək simfonik orkestr üçün əsərlərində tar alətinə geniş yer vermişlər.

Azərbaycan bəstəkarları bütün dövrlərdə tarın yüksək texniki imkanlarını və rəngarəng tembrini nəzərə alaraq müxtəlif janrlı əsərlərində tar alətinə solo melodiyalar həvalə etmişlər. Səid Rüstəmovun tar ilə xalq çalğı alətləri orkestri üçün konserti, Süleyman Ələsgərovun tar ilə xalq çalğı alətləri orkestri üçün üç konserti ("Xəyala dalarkən", "Tarantella", "Daimi hərəkət"), Ağabacı Rzayevanın "Tar üçün pyeslər"i, Sevda İbrahimovanın "Xatirə" poeması, Ramiz Mirişlinin tar ilə simfonik orkestr üçün konserti, Adil Gərayın tar üçün pyesləri bu baxımdan xüsusi əhəmiyyət kəsb edir.

Tar alətində Avropa bəstəkarlarının əsərləri də son dərəcə professional səviyyədə ifa olunur. Hətta dünya estradasının müxtəlif üslublu əsərlərini tarda bütün incəlikləri ilə ifa etmək mümkündür. Tarın simfonik orkestrlə uzlaşdırılması tar konsertlərinin yaranmasına və

rəngarəng ansambl tərkiblərinin meydana gəlməsinə şərait yaratmış, bu proses tarın həm solo, həm də ansambl aləti kimi ifaçılıq imkanlarını daha qabarıq şəkildə üzə çıxarmışdır.

Azərbaycan musiqisində tar və simfonik orkestr üçün konsert janrında əsərlərin meydana gəlməsi tar ifaçılıq sənətinin yüksək inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir. Tar ilə simfonik orkestr üçün ilk konsert görkəmli bəstəkar Hacı Xanməmmədov tərəfindən yazılmış və bu janr sonrakı dövrlərdə Azərbaycan bəstəkarlarının yaradıcılığında geniş yer tutmuşdur. Bəstəkar tar ilə simfonik orkestr üçün konsertlərində tarın texniki imkanlarını, tembrini və diapazonunu peşəkarlıqla nümayiş etdirmişdir. Tar ilə simfonik orkestrin uzlaşması və dialoqu bu əsərləri səslənmə cəhətdən zənginləşdirir.

Tar ifaçılığı ilə simfonik orkestr arasında yaradıcı dialoq müasir dövrdə məhsuldar şəkildə davam etdirilir. Bu əməkdaşlıq çərçivəsində çoxsaylı əsərlər tar və simfonik orkestr üçün işlənilərək konsert repertuarına daxil edilmiş və geniş dinləyici auditoriyasına təqdim olunmuşdur. Belə əsərlərdən Səid Rüstəmovun konserti, Həsən Rzayevin "Çahargah" rapsodiyası, Vasif Adıgözəlovun "Qərənfil", Arif Rzayevin "Düşüncə", "Qaytağı" və s. misal göstərmək olar.

Müasir dövrdə tar alətinin Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri ilə yaradıcı əməkdaşlığı uğurla davam etdirilir. Orkestrin repertuarında tar ifaçıları ilə birgə layihələr mühüm yer tutur. Belə ki, tarzən Arslan Növrəsli 2011-ci ildə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri ilə Bakı Muğam Mərkəzində "Tar project" adlı solo layihə ilə çıxış etmişdir.

Eyni zamanda müxtəlif dövrlərdə orkestrin dirijorları Teymur Göyçayev və Fəxrəddin Kərimovun rəhbərliyi altında tar alətinin simli orkestrlə sintezi istiqamətində maraqlı təcrübələr həyata keçirilmiş, muğam ifaçılığı ilə kamera orkestrinin müşayiəti üzvi vəhdət təşkil etmişdir.

XXI əsrin görkəmli tar ifaçılarından Ramiz Quliyev, Vamiq Məmmədəliyev, Ağasəlim Abdullayev, Möhlət Müslümov, Elxan Mansurov, Malik Mansurov, Zamiq Əliyev, Firuz Əliyev, Elçin Həşimov və başqalarını qeyd etməliyik. Onların hər biri özünəməxsus ifa tərzi və məktəbi ilə Azərbaycan tar ifaçılığında dərin iz qoymuşlar. Bu sənətkarların sayəsində Azərbaycan tarı təkcə milli musiqi aləti olaraq qalmayıb, həm də XXI əsrdə beynəlxalq miqyasda tanınan və sevilən bir alət kimi daha da məşhurlaşmışdır.

XXI əsrdə tar ifaçılığı sənətində bir sıra yeniliklər baş vermişdir. Bu dövrdə istedadlı tarzən Həmid Vəkilovun təşəbbüsü ilə tar alətinin ayaq üstə ifası müasir dövrümüzdə yeni istiqamət kimi qəbul etmək olar. Həmid Vəkilov tarda ən qalın sim olan bəm simini qol üzərinə endirməklə alətin səs diapazonunu dörd oktavaya çatdırmışdır.

Müasir dövrümüzün gənc istedadlı tar ifaçılarından Sahib Paşazadə, Şəhriyar İmanov, Mustafa Aşurov, Səxavət Məmmədov, Nurlan Cəfərlinski və b. adlarını qeyd etməliyik.

2012-ci ildə Paris şəhərində YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 7-ci illik sessiyası baş tutmuşdur. Sessiya çərçivəsində YUNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına dair müzakirələr aparılmış və nəticədə Azərbaycanın "Tar ifaçılığı sənəti və onun hazırlanma texnologiyası" nominasiyası həmin siyahıya daxil edilmişdir.

Sözügedən nominasiyanın siyahıya salınması İlham Əliyev tərəfindən milli mədəniyyətə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Eyni zamanda, bu uğur Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə Azərbaycanın qeyri-maddi mədəni irs nümunələrinin qorunması, yaşadılması və beynəlxalq səviyyədə təşviqi istiqamətində həyata keçirilən sistemli fəaliyyətin nəticəsi kimi qiymətləndirilir.

Nəticə. Azərbaycan musiqi mədəniyyətinin təkamülündə tar alətinin rolu müstəsna əhəmiyyət kəsb edir. X əsrdən etibarən mənbələrdə adına rast gəlinən, sufi dərvişlərinin mərasimlərindən tutmuş klassik şeirimizə qədər geniş yayılan tar, əsrlər boyu xalqımızın mənəvi yaddaşının daşıyıcısı olmuşdur.

XX əsr tar ifaçılığında yeni mərhələnin başlanğıcı olmuşdur. Üzeyir Hacıbəylinin sayəsində tədrisi qadağan olunmaq təhlükəsindən xilas olan tar, not sisteminə keçirilərək peşəkar musiqi təhsilinə daxil edilmiş, Qurban Pirimov kimi sənətkarların ifasında opera səhnəsində və qrammofon vallarında yaşadılmışdır. Bu dövrdən etibarən tar təkcə muğam üçlüyünün deyil, həm də simfonik orkestrin ayrılmaz hissəsinə çevrilmiş, Hacı Xanməmmədov, Süleyman Ələsgərov kimi bəstəkarların əsərlərində solist alət kimi yeni ifadə imkanları qazanmışdır.

XXI əsrə gəldikdə isə Ramiz Quliyev, Vamiq Məmmədəliyev, Ağasəlim Abdullayev, Möhlət Müslümov kimi görkəmli sənətkarlar özünəməxsus ifa məktəbləri ilə bu ənənəni zənginləşdirmiş, tarı beynəlxalq səviyyədə tanıtmışlar. Müasir dövrdə Şəhriyar İmanovun etno-caz sintezi kimi yenilikləri tar ifaçılığında yeni istiqamətlərin əsasını qoymuşdur. Beləliklə, qədim türk-müsəlman Şərqindən müasir dünya səhnələrinə uzanan bu yol, tar alətinin nə qədər zəngin tarixə, dərin ifaçılıq ənənəsinə və parlaq gələcəyə malik olduğunu bir daha təsdiq edir.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300